İPƏK YOLU, No.1, 2026, səh.282-290
https://doi.org/10.30546/SI.2026.001.1156

# MİLLİ KİMLİK VƏ DİL: BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA SOSİOLİNQVİSTİK ASPEKTLƏR

**Aynurə Xəlilova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: Aynura.Khalilova@au.edu.az

**Xülasə.** Məqalədə Bəxtiyar Vahabzadə yaradıcılığında dilin milli kimliyin formalaşdırılması və qorunmasındakı rolu sosiolinqvistik aspektdən təhlil olunmuşdur. Şairin əsərlərində ana dilinə münasibət, milli şüurun dildə təzahürü və dil vasitəsilə milli mənsubiyyətin aşılanması önəmli istiqamət kimi diqqətə alınmışdır. Məqalədə dilin yalnız kommunikativ vasitə kimi deyil, həm də milli ideya daşıyıcısı funksiyası yerinə yetirdiyi göstərilmişdir. Bəxtiyar Vahabzadənin poetik nümunələri üzərində aparılan linqvistik təhlillər nəticəsində məlum olmuşdur ki, onun dil üslubu, leksik seçimləri və üslubi strategiyaları Azərbaycan xalqının milli dəyərlər sistemini və kimlik şüurunu gücləndirməyə xidmət edir. Məqalədə həmçinin şairin əsərlərində etnolinqvistik elementlərin, milli-mədəni realiyaların və tarixi-mənəvi kodların dilə necə inteqrasiya olunduğu araşdırılmışdır. Bəxtiyar Vahabzadənin dili yalnız bədii təsir vasitəsi deyil, həm də milli ideologiyanın və kimliyin qoruyucusu və daşıyıcısıdır.

**Açar sözlər:** Milli kimlik, sosiolinqvistika, poetik dil, ana dili, milli şüur, milli leksika, etnolinqvistik elementlər, milli-mədəni dəyərlər, dil və ideologiya, poetik üslub.

**NATIONAL IDENTITY AND LANGUAGE: SOCIOLINGUISTIC ASPECTS IN BAKHTIYAR VAHABZADA'S WORKS**

**Aynura Khalilova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** This article analyzes the role of language in the formation and preservation of national identity in the literary works of Bakhtiyar Vahabzada from a sociolinguistic perspective. The poet's attitude toward the mother tongue, the reflection of national consciousness through language and the transmission of national belonging via linguistic means are considered key focal points. The research reveals that language, in Vahabzada's poetry, serves not only as a communicative tool but also as a carrier of national ideology. Linguistic analysis of his poetic texts demonstrates that the poet's linguistic style, lexical choices and stylistic strategies contribute significantly to strengthening the national value system and identity awareness of the Azerbaijani people. The study also investigates how ethnolinguistic elements, national-cultural realities and historical-spiritual codes are integrated into his language. The conclusion emphasizes that Vahabzada's language is not merely a means of artistic expression, but also a protector and bearer of national ideology and identity.
**Keywords:** National identity, sociolinguistics, poetic language, mother tongue, national consciousness, national lexicon, ethnolinguistic elements, national-cultural values, language and ideology, poetic style.

## 1. Giriş

Dil və milli kimlik məsələsi humanitar elmlərin, xüsusilə dilçilik, ədəbiyyatşünaslıq və sosiologiya sahələrinin diqqət mərkəzində olan fundamental mövzulardan biridir. Xalqın milli varlığını, tarixi yaddaşını, mədəni kimliyini və ictimai düşüncə tərzini yaşadan və ötürən əsas vasitə məhz dildir. Bu baxımdan, ana dili təkcə ünsiyyət vasitəsi deyil, həm də milli şüurun formalaşması və qorunmasının ən güclü ideoloji dayağı kimi çıxış edir. Bu ideyanı ədəbi müstəviyə daşıyan sənətkarlar arasında Bəxtiyar Vahabzadə müstəsna yer tutur.

Tədqiqatın əsas məqsədi, Bəxtiyar Vahabzadənin yaradıcılığında dilin milli kimliyin formalaşmasında rolunu sosiolinqvistik baxımdan araşdırmaqdır. Məqsəd şairin şeirlərində milli-mədəni dəyərlərin dil vasitəsilə necə ifadə olunduğunu təhlil etmək, müxtəlif dövrlərdə yazılmış əsərlərdəki dil seçimi və üslub xüsusiyyətlərini müqayisəli şəkildə öyrənmək və milli kimliyin oxucuda necə təzahür etdiyini sistemli şəkildə ortaya qoymaqdır.

Burada mövzu üzrə aparılmış araşdırmaların sistemli təhlili aparılır və milli kimlik, dilin funksiyası və sosiolinqvistik aspektlər baxımından Bəxtiyar Vahabzadə yaradıcılığının aktuallığını vurğulanır. Əvvəlki araşdırmalarda Vahabzadənin əsərlərində milli kimliyin formalaşması və dilin bu prosesdə rolu müxtəlif aspektlərdə təhlil olunmuşdur. Xüsusilə, onun şeirlərində Azərbaycan dilinin zənginliyi, milli dəyərlərin ifadəsi və folklor elementlərinin istifadəsi milli identikliyi gücləndirən əsas vasitələr kimi qiymətləndirilmişdir.

Azərbaycan elmi mühitində milli kimlik və dil mövzusu, eləcə də Bəxtiyar Vahabzadənin yaradıcılığında bu məsələlərin əksi bir sıra görkəmli alimlərin araşdırmalarında geniş şəkildə öz əksini tapmışdır. İlk növbədə akademik Cəfərovun əsərlərində Azərbaycan dili, milli kimlik və ədəbi dil tarixi ilə bağlı dərin elmi ümumiləşdirmələrə rast gəlmək olar [5]. Onun araşdırmalarında Bəxtiyar Vahabzadənin poetikasında milli ideyanın dil vasitəsilə ifadəsi xüsusi vurğulanır. Hacıyev isə Azərbaycan ədəbi dilinin inkişaf mərhələlərini tədqiq edərək, milli ideyanın formalaşmasında dilin mərkəzi rolunu ön plana çıxarır, bu baxımdan Vahabzadənin mövqeyini ayrıca qiymətləndirir [11]. Mahmudov milli kimlik və tarixi yaddaş məsələlərinə dair araşdırmalarında Bəxtiyar Vahabzadənin ictimai-siyasi baxışlarını və poeziyasında milli düşüncə xəttini işıqlandırmışdır [15]. Həbibbəylinin əsərlərində isə Azərbaycan ədəbiyyatında milli ideya və kimlik konsepsiyası elmi əsaslarla araşdırılır, Vahabzadə yaradıcılığında dilin ictimai funksiyası geniş təhlil edilir [12]. Quliyev [22], şairin poeziyasında istiqlal düşüncəsi və milli ideyanın ifadə vasitələrinə diqqət yetirərək, onun Azərbaycan ədəbiyyatında müstəqillik ideyalarının daşıyıcısı olduğunu göstərir. Abdulla [1] milli kimlik, mədəniyyət və dil münasibətlərini nəzəri baxımdan öyrənmiş, müxtəlif yazılarında Bəxtiyar Vahabzadənin bu kontekstdəki roluna toxunmuşdur. Eyni zamanda, Məmmədov milli kimlik, dil və ədəbiyyatın birliyi mövzusunda apardığı araşdırmalarda Vahabzadənin poetikasına istinad etmişdir [17]. Alışanlı isə şairin poetik üslubunu, dil xüsusiyyətlərini və milli düşüncə yönünü dərin təhlillərlə işıqlandırmışdır [2]. İbrahimovun tədqiqatlarında Vahabzadə poeziyasında milli ideya və dil məsələləri ön plana çəkilir [14]. Saraclı isə ədəbi dilin milli özünüdərk prosesindəki funksiyasını araşdıraraq, Bəxtiyar Vahabzadə irsini bu müstəvidə qiymətləndirmişdir [23]. Beləliklə, Azərbaycan alimlərinin araşdırmalarında Bəxtiyar Vahabzadənin yaradıcılığı təkcə poetik-estetik baxımdan deyil, həm də milli kimlik və dil prizmasından öyrənilmiş, onun poeziyası milli yaddaşın, dilin və azadlıq düşüncəsinin güclü ifadəçisi kimi təqdim edilmişdir.

Bəxtiyar Vahabzadənin yaradıcılığı milli kimlik və dilin bir-biri ilə bağlılığını açıq şəkildə göstərir. Onun şeirlərində dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli-mədəni dəyərlərin qorunması və ötürülməsi alətidir. Bu baxımdan şairin şeirləri keyfiyyətcə təhlil

olunur, leksik seçimlər, metaforik ifadələr və milli motivlər araşdırılır. Müqayisəli yanaşma ilə müxtəlif dövrlərdə yazılmış əsərlər arasındakı oxşarlıqlar və fərqlər göstərilir, Vahabzadənin yaradıcılığının unikal xüsusiyyətləri vurğulanır. Sosiolinqvistik interpretasiya vasitəsilə dilin sosial funksiyası və milli kimliyin ifadəsində rolu müəyyən edilir.

Müasir tədqiqatlar göstərir ki, milli kimlik və dil məsələləri yalnız ədəbi kontekstdə deyil, həm də sosial və mədəni sahələrdə araşdırılır. Lakin Vahabzadənin yaradıcılığı ilə bağlı araşdırmalar, əsasən, yalnız şairin ideyalarını ümumi şəkildə təhlil etməklə kifayətlənir, sosiolinqvistik yanaşma və sistemli misra təhlili isə azdır. Bu səbəbdən milli kimliyin dil vasitəsilə ifadəsi, şairin müxtəlif dövrlərdəki əsərlərindəki nümunələr üzərində geniş və elmi əsaslı araşdırılmağa ehtiyac duyur.

Mövcud boşluq ondan ibarətdir ki, əvvəlki araşdırmalar daha çox ümumi təhlil və interpretasiya ilə kifayətlənir, konkret misra və şeir nümunələri üzərində sosiolinqvistik analiz aparılmır. Eyni zamanda, müasir yanaşmaların tələblərinə uyğun olaraq şairin yaradıcılığında dilin milli kimliyin formalaşmasında sosial və mədəni rolunu əyani şəkildə göstərən nümunələr azdır. Beləliklə, Bəxtiyar Vahabzadənin şeirlərində dil və milli kimliyin əlaqəsini dərindən öyrənmək üçün keyfiyyət təhlili, müqayisəli analiz və sosiolinqvistik interpretasiya birləşdirilməli, mövcud boşluqlar isə konkret nümunələr üzərində işləməklə aradan qaldırılmalıdır.

Mənim ana dilim mənim kimliyim,
Pasportum, özümə öz hakimliyim [25].

Şairin bu misrası dilin milli kimlik üçün nə qədər əhəmiyyətli olduğunu göstərir. Ana dil yalnız ünsiyyət vasitəsi deyil, fərdin milli mənsubiyyətinin əsasını təşkil edir və onun sosial mövqeyini müəyyən edir. “Pasportum” ifadəsi dilin fərdin identifikasiyası və cəmiyyətdə tanınması rolunu simvolizə edir. Eyni zamanda, “özümə öz hakimliyim” frazası dilin fərdin şəxsi və sosial varlığında əsas hakimiyyət aləti olduğunu vurğulayır. Bu misra göstərir ki, Vahabzadə üçün dil milli kimliyin ifadəsi olmaqla yanaşı, fərdin sosial statusunu və özünüifadə imkanını təmin edən vasitədir. Bununla yanaşı, Vahabzadənin yaradıcılığı üzərində aparılmış tədqiqatlar, onun dil vasitəsilə etnik və milli identikliyin formalaşmasını necə dəstəklədiyini ortaya qoyur. Sosiolinqvistik yanaşma əsasında şairin əsərlərində dilin funksional rolu həm kommunikativ, həm də ideoloji aspektdə araşdırılmışdır. Bu tədqiqatlar göstərir ki, Vahabzadə yalnız ədəbi yaradıcılığı ilə deyil, həm də dil siyasətinə münasibəti və dilin milli kimlik formalaşmasında rolu ilə diqqət çəkir.

Ümumilikdə, mövcud araşdırmalar göstərir ki, Bəxtiyar Vahabzadənin yaradıcılığı milli kimlik və dilin qarşılıqlı təsirini anlamaq baxımından zəngin material təqdim edir. Bununla yanaşı, mövcud tədqiqatlarda, əsasən. ümumi ədəbi təhlil və dilin estetika funksiyası üzərində dayanıldığı üçün, sosiolinqvistik aspektlərin sistemli və daha geniş təhlili hələ də tədqiq

olunması vacib sahə olaraq qalır. Bu isə mövzumuzun aktuallığını və elmi əhəmiyyətini əsaslandırır.

Azərbaycan ədəbiyyatında milli ideyanın, mənəvi dirənişin və azadlıq düşüncəsinin poeziyada ifadəsi kontekstində Bəxtiyar Vahabzadənin rolu əvəzsizdir. Onun poetik yaradıcılığı, milli-mənəvi dəyərlərin, tarixi yaddaşın və dilə olan sonsuz sevginin şeir dili ilə təcəssümüdür. Vahabzadə yaradıcılığında dil sadəcə estetik vasitə deyil, həm də milli ideologiyanın ifadə aləti, tarixi kimliyin daşıyıcısı və ictimai müqavimətin səsi kimi çıxış edir [11, s.33].

Məqalədə Bəxtiyar Vahabzadənin yaradıcılığı sosiolinqvistik aspektdən araşdırılmışdır. Əsas məsələ şairin əsərlərində dilin milli kimliyin qurulması və qorunması baxımından necə istifadə edildiyini üzə çıxarmaqdır. Məhz dilin poetik imkanları, onun milli dəyərlərlə və ideoloji yüklə birləşməsi Vahabzadənin poeziyasını fərqləndirən əsas xüsusiyyətlərdəndir. Şairin poetik dilində işlənən leksik vahidlər, milli-mədəni realiyaları əks etdirən semantik strukturlar, etnolinqvistik elementlər və üslubi seçimlər milli identikliyi gücləndirən əsas vasitələr kimi təhlil edilir.

Tədqiqat çərçivəsində həmçinin göstərilir ki, Vahabzadə milli dilin qorunmasını və inkişafını yalnız ədəbi-estetik məsələ kimi deyil, həm də milli ideoloji məsələ kimi görmüş və bu prinsipi poeziyasının ana xəttinə çevirmişdir. Onun əsərlərində milli kimliyin ifadəsi ilə bağlı dil faktlarının və poetik strukturların sistemli şəkildə işlənməsi, şairin dilə və kimliyə verdiyi yüksək dəyəri göstərir. Beləliklə, məqalənin əsas məqsədi, Bəxtiyar Vahabzadə yaradıcılığında dilin milli kimliyin formalaşmasındakı sosiolinqvistik rolunu araşdırmaq və bu prosesin poetik dil vasitəsilə necə ifadə olunduğunu göstərməkdən ibarətdir [1, s.123].

1. Sosiolinqvistik yanaşma və milli kimlik anlayışı

Sosiolinqvistika - dilin cəmiyyət daxilindəki funksiyalarını, sosial kimliklə qarşılıqlı əlaqəsini və ictimai münasibətlər sistemində oynadığı rolu tədqiq edən elm sahəsidir. Bu sahə milli kimlik məsələsinin tədqiqində mühüm açarlar təqdim edir. Milli kimlik isə xalqın dili, tarixi, dini, dəyərləri, mədəniyyət və adət-ənənələri ilə birgə formalaşan kompleks psixoloji-sosioloji bir varlıqdır [15, s.55] . Bu anlamda dil həm milli kimliyin qoruyucusu, həm də onun formalaşmasında başlıca vasitədir. Bəxtiyar Vahabzadə yaradıcılığında bu anlayışların sintezi özünün ən bariz təzahürünü tapır.

2. Bəxtiyar Vahabzadənin dilə münasibəti və ideoloji baxışı

Bəxtiyar Vahabzadə ana dilinə yalnız poetik baxışla deyil, milli müqavimətin və kimlik şüurunun daşıyıcısı kimi yanaşır. Onun “Ana dili”, “Vətən”, “Gülüstan”, “Latın əlifbası” kimi əsərlərində dilə bağlılıq həm emosional, həm də ictimai-siyasi çalarlarla ifadə edilir. Şair üçün ana dili - milli varlığın rəmzi, azadlığın təməli və xalqın birliyinin əsas sütunudur. O, dilin itkisinin milli yaddaşın və mənəvi kimliyin itirilməsi anlamına gəldiyini xüsusi vurğulayır [12, s.43].

3. Milli leksika və etnolinqvistik elementlər

Vahabzadənin şeirlərində milli-mədəni realiyaları əks etdirən leksik vahidlər xüsusi yer tutur. O, xalqın gündəlik həyatına, folkloruna, tarixinə və mənəvi dəyərlərinə bağlı olan söz və ifadələrdən geniş şəkildə istifadə edir. "El", "oba", "qəhrəman", "qəbirdaş", "təpəgöz", "xalça", "dastan" kimi milli yüklü sözlər onun dilində yalnız təsvir vasitəsi deyil, həm də milli yaddaşın və identikliyin dil daşıyıcılarıdır. Bu cür etnolinqvistik elementlər şairin poeziyasında xalq ruhunu yaşadan canlı ifadə sisteminə çevrilir.

4. Şəxs və zamana görə formalaşan milli şüur

B. Vahabzadənin poeziyasında şəxs kateqoriyası ("biz", "sən", "mən") vasitəsilə milli təfəkkür və kollektiv kimlik ifadə edilir. O, "biz" müraciəti ilə həm özünü xalqla eyniləşdirir, həm də oxucuda milli məsuliyyət hissini oyadır. Zaman kateqoriyası da bu poetik strukturlarda mühüm yer tutur - keçmişin şərəfli tarixini, bu günün problemlərini və gələcəyə olan ümidi birləşdirən zaman baxışı, milli kimliyin davamlılığını göstərir [6, s.78].

5. Milli ideologiyanın poetik dildə təzahürü

Şairin poeziyasında milli ideologiya gizli yox, açıq və qabarıq formada təqdim olunur. Bu ideologiyanın əsasında isə dil və milli kimlik dayanır. "Ana dili" şeirində dilin müqəddəsliyi və qorunmalı dəyər olması fikri ideoloji-mənəvi kontekstdə təqdim edilir:

Ana dilim, səninlədir adım-sanım,
Səninlə var olur xalqım, Vətənim!

Bu misralarda dil yalnız ünsiyyət vasitəsi deyil, həm də şəxsiyyətin və toplumun varlığını təmin edən mənəvi sütun kimi təqdim olunur.

6. Poetik üslub və estetik baxımdan milli dəyər

Bəxtiyar Vahabzadənin poetik üslubu milli kimliyin daşıyıcısı olmaqla yanaşı, onu estetik cəhətdən gücləndirən vasitə kimi çıxış edir. Şairin metaforaları, simvollardan istifadəsi, təkrir və paralelizm kimi üslubi fiqurlar vasitəsilə milli kimlik dərin estetik çalarlarla oxucuya çatdırılır. Onun şeirləri yalnız məzmun deyil, forma baxımından da milli ruhu daşıyır.

Aparılan tədqiqatlar göstərir ki, Bəxtiyar Vahabzadə yaradıcılığında dil yalnız bədii-estetik vasitə kimi deyil, həm də milli kimliyin qorunması və gələcək nəsillərə ötürülməsi üçün mühüm ideoloji alət kimi çıxış edir. Şairin poetik dili milli-mənəvi dəyərlərin ifadəsində, tarixi yaddaşın canlandırılmasında və kollektiv kimlik şüurunun möhkəmləndirilməsində mühüm rol oynayır. Onun əsərlərində istifadə edilən leksik-semantik vahidlər, etnolinqvistik elementlər, metaforalar və sosiolinqvistik motivlər Azərbaycan xalqının dil vasitəsilə öz varlığını dərk etməsinin nümunələridir.

Bəxtiyar Vahabzadənin poeziyasında ana dilinə olan münasibət, təkcə vətən sevgisinin bir parçası kimi deyil, eyni zamanda milli özünüdərk və mənəvi müqavimətin simvolu kimi təqdim olunur. Dilin ictimai və estetik funksiyaları onun poeziyasında bir-biri ilə vəhdət təşkil edir və bu vəhdət milli kimlik ideyasını daha da güclü formada oxucuya çatdırır. Nəticə etibarilə, Vahabzadənin poetik dili yalnız bir sənətkarın fərdi üslubu deyil, həm də xalqın milli

kimliyinin dil müstəvisində bədii təcəssümüdür. Bu səbəbdən onun yaradıcılığı sosiolinqvistik baxımdan öyrənilməli və milli ideoloji irs kimi gələcək nəsillərə çatdırılmalıdır.

Azərbaycan ədəbiyyatında ana dili və milli kimlik məsələlərinin poeziyada dərin şəkildə əks olunması XX əsrin ikinci yarısından etibarən özünəməxsus istiqamətdə inkişaf etmişdir. Bu istiqamətin ən görkəmli nümayəndələrindən biri də Bəxtiyar Vahabzadədir. Onun yaradıcılığı dilin yalnız ünsiyyət vasitəsi deyil, milli mənəviyyatın, mədəni yaddaşın və ictimai şüurun ifadə vasitəsi kimi çıxış etdiyini sübut edir. Bəxtiyar Vahabzadə üçün dil, ilk növbədə, xalqın varlığı ilə birbaşa bağlı olan mənəvi dəyərdir. Bu baxımdan onun əsərlərində dil məsələləri yalnız texniki və ya stilistik deyil, ideoloji və kimlik yönümlü yanaşmalarla təqdim olunur.

Şairin dilə yanaşması milli ideologiya ilə sıx bağlıdır. Xüsusilə "Ana dilim" şeirində ana dilinin müqəddəsliyi, onun qorunması və yaşadılması ideyası aydın şəkildə ön plana çəkilir. Burada dil təkcə bir ünsiyyət vasitəsi kimi deyil, həm də xalqın varlıq əsaslarını təşkil edən ruhani dəyər kimi təqdim olunur:

"Sənsiz adım haram, Vətənim haram,
Ana südü kimi halalım dilim.
Harda sən varsansa, orda mən varam
Ey mənim ulduzum, hilalım, dilim.

Bu misralar göstərir ki, şair üçün dil, eyni zamanda, millətin kimliyinin ayrılmaz parçasıdır. O, bu fikri bir çox əsərlərində müxtəlif leksik və semantik vasitələrlə möhkəmləndirir.

Bəxtiyar Vahabzadənin poetik dili yüksək səviyyəli bədii-estetik imkanlarla yanaşı, güclü funksional yüklə də xarakterizə olunur. Onun dilində xalq danışıq tərzi, atalar sözləri, deyimlər, folklor motivləri və milli leksikon geniş yer tutur. Bu, dilin xalqla bağlılığını möhkəmləndirməklə yanaşı, onu poetik diskursun əsas struktur elementi kimi təqdim edir. Şairin dilindəki milli ruh, etnolinqvistik elementlər - məsələn, "el", "oba", "yurd", "qəhrəman", "xalq", "Vətən" kimi sözlər - oxucuda milli yaddaşla bağlılıq və vətənpərvərlik hissini gücləndirir.

Eyni zamanda, Vahabzadə dilin sosial statusuna və onun ictimai rolu məsələsinə də xüsusi diqqət yetirir. Sovet dönəmində ana dilinin sıxışdırıldığı bir şəraitdə onun bu mövzuya toxunması təkcə ədəbi deyil, həm də ictimai cəsarət nümunəsi idi. Bu kontekstdə onun "Gülüstan" poeması və digər əsərləri ana dili ilə bağlı ictimai narahatlığın poetik ifadəsidir. Dilin yad təsirlərdən qorunması və saflaşdırılması məsələsi şair üçün milli mənsubiyyətin qorunması qədər mühümdür.

Bəxtiyar Vahabzadənin yaradıcılığı Azərbaycan ədəbiyyatında milli kimliyin və dilin bir-birinə bağlılığının əyani nümunəsidir. Onun şeirlərində dil, yalnız ünsiyyət vasitəsi deyil, həm də milli-mədəni dəyərlərin qorunması və ötürülməsi funksiyasını yerinə yetirir. Bu baxımdan sosiolinqvistik yanaşma Bəxtiyar Vahabzadənin əsərlərində dilin sosial və mədəni rolunu təhlil etməyə imkan verir.

1. Dil vasitəsilə milli kimliyin ifadəsi - Şairin “Ana dilim” şeirində dil milli kimliyin mərkəzi elementi kimi təqdim olunur:

“Hər millətinən qiymətli
Sərvətidir ana dili
Övladları yer üzünə səpələnsə
Pərən-pərən düşənlərin
Vəhdətidir ana dili [25].

Bu misralar dilin milli-mədəni dəyərlərin qorunmasında rolunu açıq şəkildə göstərir. Burada “ana dil” termini təkcə ünsiyyət vasitəsi kimi deyil, həm də milli mənsubiyyət və kimliyin simvolu kimi çıxış edir. Sosiolinqvistik təhlilə görə, belə leksik seçim və metaforik ifadələr oxucuda milli mənsubiyyət hissini gücləndirir və dilin sosial funksiyasını ön plana çıxarır.

2. Dil və sosial identifikasiya - Vahabzadə şeirlərində, poetik yaradıcılığında dilin sosial funksiyasını göstərir: dil həm fərdi, həm də ictimai identifikasiyanın göstəricisi kimi çıxış edir. Şair burada oxucuya dilin milli kimliyin qorunmasında və mədəni dəyərlərin nəsildən-nəsilə ötürülməsində aparıcı rol oynadığını göstərir. Sosiolinqvistik yanaşma bu nümunəni analiz edərkən dilin sosial və mədəni funksiyasını konkretləşdirir.

3. Tarixi və mədəni kontekst - Vahabzadənin şeirlərində milli kimlik və dilin tarixi-mədəni əlaqəsi vurğulanır:

“Tarixin yolunu keçdin uğurlu,
Sənə batammadı bir qoluzorlu.
Dünəni möhtəşəm,sabahı nurlu,
İndisi tapdanıb ovulan dilim”.

Burada şair dili milli tarix və torpaq ilə sıx əlaqələndirir. Sosiolinqvistik baxımdan, dil həm identifikasiya vasitəsi, həm də sosial mədəni yaddaşın qoruyucusudur. Şairin bu yanaşması oxucuya milli kimliyin yalnız ideya olaraq mövcud olmadığını, eyni zamanda dil vasitəsilə konkret şəkildə ifadə olunduğunu göstərir.

4. Sosiolinqvistik nəticə - Bəxtiyar Vahabzadənin yaradıcılığında sosiolinqvistik yanaşma milli kimliyin dil vasitəsilə ifadəsini öyrənmək üçün əvəzsiz mənbədir. Onun şeirlərində milli kimlik və dil bir-birini tamamlayan və gücləndirən amillər kimi çıxış edir. Dil milli dəyərlərin qorunması və ötürülməsi üçün vasitə olmaqla yanaşı, həm də fərdin və cəmiyyətin identifikasiyasını müəyyən edir.

**Nəticə.** Bəxtiyar Vahabzadənin yaradıcılığı milli kimliyin və dilin qorunması baxımından əvəzsiz mənbədir. Onun poetik irsində Azərbaycan dili yalnız ünsiyyət vasitəsi kimi deyil, milli yaddaşın, mədəniyyətin və kimliyin daşıyıcısı kimi çıxış edir. Şairin əsərlərində milli ideyanın ifadəsi dil vasitəsilə formalaşır və gücləndirilir, bununla Azərbaycan xalqının tarixi, mədəniyyəti və milli dəyərləri poeziya vasitəsilə yaşadılır.

Tədqiqat göstərir ki, Vahabzadənin yaradıcılığı milli kimlik-dil münasibətlərini sosiolinqvistik baxımdan öyrənmək üçün unikal elmi mənbədir. Onun poetik dili, istifadə etdiyi arxaizmlər, milli metaforalar və leksik elementlər milli ideyanı estetik və funksional şəkildə çatdırır, ictimai-siyasi şəraitdə dilin qorunması və inkişaf etdirilməsi məsələlərinə diqqət çəkir.

Beləliklə, Bəxtiyar Vahabzadənin əsərləri milli kimliyin formalaşmasında dilin rolunu və Azərbaycan ədəbiyyatında milli ideyanın sosiolinqvistik əsaslarını öyrənmək üçün əsaslı elmi təhlil obyektidir. Bəxtiyar Vahabzadə yaradıcılığına yalnız ədəbi-estetik deyil, eyni zamanda sosiolinqvistik aspektdən yanaşılaraq milli kimlik və dil münasibətlərinin poetik mətndə necə təzahür etdiyi ilk dəfə sistemli şəkildə öyrənilir. Şairin əsərlərində dilin milli kimliyin formalaşması və qorunmasında mərkəzi rol oynaması elmi əsaslarla izah olunur. Vahabzadənin yaradıcılığında dilin sadəcə ünsiyyət vasitəsi kimi deyil, milli yaddaş, mədəniyyət və kimlik daşıyıcısı kimi çıxış etməsi sosiolinqvistik baxımdan təhlil edilir. Bununla yanaşı, onun poetik irsində Azərbaycan dilinin statusu, ictimai-siyasi şəraitdə yerinə yetirdiyi funksiyalar və milli müqavimət ideyalarının bədii şəkildə ifadəsi xüsusi olaraq araşdırılır. Şairin leksikonunda milli ideyanı gücləndirən metaforalar, arxaizmlər və milli-mədəni reallığa aid dil vahidlərinin funksional rolu müəyyən edilir. Həmçinin, Vahabzadənin yaradıcılığında milli dil uğrunda mübarizənin sovet və müstəqillik dövrlərindəki dəyişməsi müqayisəli şəkildə üzə çıxarılır. Beləliklə, aparılan araşdırma Bəxtiyar Vahabzadə irsini Azərbaycan dilinin milli kimlikdəki rolunu bədii-sosiolinqvistik model şəklində təqdim edən unikal mənbə kimi dəyərləndirir. Vahabzadənin şeirlərində sosiolinqvistik analiz milli kimliyin dil vasitəsilə formalaşmasının praktik nümunəsini təqdim edir. Şairin əsərlərində dil və milli kimlik bir-birinə bağlıdır və bu əlaqə onun yaradıcılığının əsas xüsusiyyətlərindən biridir.

Bəxtiyar Vahabzadənin yazı dili həm də üslubi zənginliklə diqqəti cəlb edir. Onun poetik üslubu dinamik sintaksis, təkrir, paralelizm, metaforalar və simvolik strukturlar vasitəsilə qurulur. Bu üslubi vasitələr vasitəsilə dilin emosional və təsir gücü artırılır, eyni zamanda milli mövzuların estetik dəyəri yüksəlir. Xüsusilə metaforik ifadələr - "dil xalqın ruhudur", "ana dili müqəddəs əmanətdir" kimi poetik strukturlar dilin funksional-ideoloji mahiyyətini ön plana çıxarır.

Ümumilikdə, Bəxtiyar Vahabzadənin dilə münasibəti çoxşaxəli və dərinliklidir. Onun yaradıcılığı göstərir ki, ana dili yalnız bir kommunikasiya vasitəsi deyil, həm də xalqın varlığı, milli kimliyi, tarixi və mədəniyyəti ilə sıx bağlı olan mənəvi dayaqlardan biridir. Şairin əsərlərində dil həm fikir, həm hiss, həm də milli ruhun ifadə vasitəsidir. Bu xüsusiyyətlər onun poetik dilini yalnız ədəbi deyil, həm də sosiolinqvistik və ideoloji baxımdan dəyərli tədqiqat obyektinə çevirir.

## Ədəbiyyat

1. Abdulla K. (2006), Dil, Mədəniyyət, Kimlik. Bakı: Qanun.
2. Alışanlı Ş. (2008), Bəxtiyar Vahabzadənin Poetik Üslubu. Bakı: Elm və Təhsil.

3. Anderson B. (2006), Təsəvvür Olunan İcmalar: Milli Kimliyin Mənşəyi və Yayılması. (tərc.). Bakı: Qanun Nəşriyyatı.
4. Axundov M. (2017), Sosiolinqvistika: Dil və Cəmiyyət. Bakı: Adiloğlu.
5. Cəfərov N. (2007), Azərbaycan Dili və Milli Kimlik. Bakı: Elm.
6. Cəfərov N. (2012), Azərbaycan Ədəbi Dili Tarixi. Bakı: Elm və Təhsil.
7. Əliyeva F. (2015), Linqvopoetik Təhlilin Əsasları. Gəncə: Elm.
8. Əliyeva N. (2013), Azərbaycan Ədəbiyyatında Milli Kimlik Problemi. Bakı: Elm və Təhsil.
9. Hacıyev A. (2008), Bəxtiyar Vahabzadənin Poetik Dünyası. Bakı: Azərbaycan Milli Elmlər Akademiyası.
10. Hacıyev T. (1990), Azərbaycan Ədəbi Dilinin Tarixi. Bakı: Maarif.
11. Hacıyev T. (2007), Dil və Milli İdeya. Bakı: Nurlan.
12. Həbibbəyli İ. (2010), Azərbaycan Ədəbiyyatinda Milli İdeya və Kimlik Konsepsiyası. Bakı: Elm və Təhsil.
13. Həmidov M. (2019), Dil və Milli Şüur: Sosiolinqvistik Baxış. Bakı: Elm və İnnovasiya.
14. İbrahimov E. (2015), Milli İdeya və Dil Məsələləri Bəxtiyar Vahabzadə Poeziyasında. Bakı: Elm.
15. Mahmudov Y. (2004), Azərbaycan Xalqının Milli Kimliyi və Tarixi Yaddaşı. Bakı: Elm.
16. Məmmədli A. (2014), Poetik Dilin Semantikası. Bakı: Təhsil.
17. Məmmədov A. (1995), Milli Kimlik və Ədəbiyyat. Bakı: Elm.
18. Məmmədov F. (2011), Bəxtiyar Vahabzadənin Yaradıcılığında Vətəndaşlıq İdeyası və Milli Kimlik. Bakı: Nurlar.
19. Məmmədova R. (2021), Dil, Mədəniyyət və Kimlik: Etnolinqvistik Yanaşmalar. Bakı: Elm və Təhsil.
20. Qasımova S. (2020), Milli İdeya və Bədii Düşüncə. Bakı: Elm və Təhsil.
21. Quliyev C. (2016), Ədəbiyyatda Dil Və İdeologiya Münasibətləri. Bakı: Çaşıoğlu.
22. Quliyev V. (1998), İstiqlal Ədəbiyyatı və Bəxtiyar Vahabzadə Yaradıcılığı. Bakı: Yazıçı.
23. Saraclı Ə. (2003), Ədəbi Dil və Milli Özünüdərk. Bakı: Elm.
24. Süleymanov T. (2022), Azərbaycan Poeziyasında Milli Leksikanın Funksional Yükü. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı.
25. Vahabzadə B. (2008), Seçilmiş Əsərləri. Bakı: Şərq-Qərb.